# Korrupsiyaya qarşı mübarizə Azərbaycan dövlətinin prioritet vəzifələrindəndir

**Bu gün müstəqil Azərbaycanın həyatın ən müxtəlif sahələrində əldə etdiyi nailiyyətlər həqiqətən heyrətamizdir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ölkənin milli inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurlu davamı müstəqillik yolunda inamla addımlayan Azərbaycanın bu zəfərləri üçün möhkəm zəmin yaratmışdır. Praqmatik, müasir dünyagörüşlü ölkə başçısı dünyadakı mütərəqqi inkişaf meyllərini düzgün müəyyənləşdirərək Azərbaycan gerçəkliyində öz əksini tapması üçün səylərini əsirgəmir. İlham Əliyev Ulu Öndərin dövlətçilik, azərbaycançılıq konsepsiyasından bəhrələnərək ölkənin inkişaf tendensiyasına yeni, müasir dövrün tələblərinə uyğun çalarlar gətirmişdir.**

Korrupsiya sosial hadisədir. O, şəxsi mənafeyi əsas tutaraq varlanmaq məqsədilə vəzifəli şəxslər tərəfindən qulluq mövqeyindən sui-istifadə etməklə xarakterizə olunan və bir çox hallarda isə az qala onların həyat tərzinə çevrilən, nəticə etibarilə idarəetmə sistemini iflic vəziyyətə salan, ictimai həyatın ən eybəcər formasıdır.

İqtisadi sahədə korrupsiya ədalətli rəqabətin pozulmasına, kölgə iqtisadiyyatının inkişaf etməsinə, gəlirlərin vergidən yayınmasına, investisiya qoyuluşunun, qiymətli kağızlar, sığorta və maliyyə bazarının inkişafının ləngiməsinə səbəb olur.

Yeni iqtisadi münasibətlərə - bazar iqtisadiyyatına keçid mərhələsində korrupsiya öz miqyası ilə diqqəti cəlb edir. O iqtisadiyyata əhəmiyyətli dərəcədə ziyan vurur, hökumət səviyyəsində qəbul edilmiş qərarların səmərəsini və vətəndaşların dövlət hakimiyyətinə olan etimadını zəiflədir, məhkəmə sistemində qanunsuz qərarların qəbul edilməsinə, ictimai həyatın və dövlət həyatının bütün sahələrində (təhsil, mədəniyyət, ordu, elm, incəsənət, siyasət və s.) özbaşınalığın baş almasına səbəb olur. Bütün bunlar öz növbəsində dövlətin daxili və xarici siyasətinə öz mənfi təsirini göstərməyə bilməz.

Azərbaycan tərəfinin 2003-cü il 30 dekabr tarixdə imzalamış olduğu "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" 1999-cu il yanvarın 27-də Strasburq şəhərində qəbul olunmuş Konvensiyada qeyd edilir ki, korrupsiya qanunun aliliyinə, demokratiya və insan hüquqlarına təhlükə yaradır, səmərəli dövlət idarəçiliyini sarsıdır, bərabərlik və sosial ədalət prinsiplərini pozur, rəqabət üçün şəraiti təhrif edir, iqtisadi inkişafı çətinləşdirir, demokratik təsisatların sabitliyinə və cəmiyyətin mənəvi dəyərlərinə təhlükə yaradır.

Zəmanəsinin məşhur siyasi xadimi Nikkolo Makiavelli korrupsiyanı əvvəlcədən müəyyənləşdirilməsi çətin, lakin müalicəsi asan olan, bir müddət sonra isə müəyyənləşdirilməsi asan, lakin müalicəsi mümkün olmayan xəstəliyə bənzətmişdir.

"Müalicə olunmasına" gərgin əmək tələb olunan "xəstəliyin" qarşısının alınması istiqamətində ümummilli lider Heydər Əliyev tərəfindən vaxtı ilə "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" 1994-cü il 9 avqust tarixli və "Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi haqqında" 2000-ci il 8 iyun tarixli Fərmanlar imzalamışdır.

Ulu Öndər qeyd edirdi ki, rüşvətxorluq cəmiyyəti içindən yeyir, bu hallara qarşı mübarizə hamının işidir. Son illər bu sahələrdə aparılan ardıcıl islahatlar və əldə olunan müsbət nəticələr dövlət quruculuğu və vətəndaş cəmiyyəti formalaşdırılmasında mühüm mərhələ olmaqla, iqtisadi potensialın artmasında böyük rol oynamış, ölkəmizin dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirmiş, əhalinin maddi rifahının yaxşılaşması üçün əsaslı zəmin yaratmışdır.

Korrupsiya (latınca - corruptio) satın alınmaq, ictimai və siyasi xadimlərin, dövlət məmurlarının və vəzifəli şəxslərin satın alınması və satılması deməkdir.

Korrupsiya elə bir xəstəlikdir ki, həm varlı, həm də kasıb ölkələrə məxsusdur və dövlətdə bir siyasi, yaxud iqtisadi formasiyadan digərinə keçid zamanı daha geniş və sərt şəkildə özünü büruzə verməyə vərdişlidir.

Müasir beynəlxalq normativ sənədlər korrupsiyanın müxtəlif təriflərini vermişdir. BMT-nin korrupsiya ilə bağlı sənədlərində o, şəxsi maraqlar üçün dövlət hakimiyyətindən sui-istifadə kimi başa düşülür, yəni korrupsiya rüşvətxorluqdan kənara çıxır. Bu anlayış rüşvətxorluğu da, şəxsi əlaqələr zəminində himayəni də və şəxsi istifadə üçün ictimai vəsaitlərin qeyri-qanuni mənimsənilməsini də özündə ehtiva edir.

Azərbaycan cəmiyyətində də korrupsiya deyiləndə ilk növbədə bu ifadə rüşvət almaq, rüşvət vermək anlamına gəlir. Əslində bu belə deyildir. "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 9-cu maddəsində korrupsiyanın nədən ibarət olmasının açıqlaması verilmişdir. Qısaca da olsa onlardan bir neçəsini qeyd etmək istərdim. Korrupsiya dedikdə vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsi müqabilində özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər tələb etmə, əldə etmə və ya belə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin verilməsi ilə bağlı vədi və ya təklifi qəbul etmə və sair hərəkətlər başa düşülür.

Korrupsiya ilə bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsində korrupsiya cinayətlərinə böyük fəsil ayrılmışdır və bu əməllərə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Tarixən Azərbaycanda vəziyyətin nə cür olduğunu bilmək üçün keçmişimizə bir balaca ekskurs etmək bəlkə də yerinə düşərdi. 1846-cı ildə "Kavkazskiy kalendar" Azərbaycan barədə verdiyi məlumatlardan birində yazırdı: "Yerli sakinlərdən heç kəs, hətta gecələr belə evlərinin qapılarını bağlamır, bu barədə düşünmürlər də, qarovul söhbəti, alıb-vermək və oğurluq söhbəti burada yoxdur".

Aradan 60 il keçəndən sonra 1906-cı ildə Azərbaycan Xalq Cümhuriyyətinin hökumət üzvü, 1-ci Dövlət Dumasının deputatı İsmayıl xan Ziyadxanov Dumanın tribunasından demişdi: "Bizdəki idarə sistemi tənqid xaricindədir. O qədər ki, əgər bütün Rusiya bir dəniz, Qafqaz da onun sahilləri olaraq düşünülərsə, bu dənizlə sizə gərəkli olmayan nə qədər boş və səfil varsa, hamısını bizim Qafqaz sahillərinə fırladıb atırsınız. Və bunlar da əslən əxlaqsız olan bir idarənin məmur kadrlarını tamamlamağa yaramış olurlar".

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, korrupsiyaya qarşı mübarizəni qanunvericiliklə müəyyən edilmiş qaydada hüquq mühafizə orqanları həyata keçirirlər. Dövlət Proqramı üzrə tədbirlərin 3.7-ci bəndində nəzərdə tutulmuş korrupsiyaya qarşı mübarizə məqsədilə hüquq-mühafizə orqanları aparatlarında daxili nəzarətin təşkil edilməsi ilə bağlı Azərbaycan Prezidentinin 2004-cü il 30 iyun tarixli Fərmanı ilə Daxili İşlər Nazirliyinin strukturunda Daxili Təhlükəsizlik İdarəsi yaradılmışdır. Analoji İdarələr Vergilər, Fövqəladə Hallar Nazirliklərində, Gömrük Komitəsində, Dövlət Miqrasiya Xidmətində yaradılmışdır. Dövlət Sərhəd xidmətində daxili nəzarətin həyata keçirilməsi ayrıca struktur bölməyə həvalə edilmişdir. Daxili nəzarətin həyata keçirilməsinin əsas məqsədi dövlət orqanlarında inzibati nəzarəti təmin etmək, korrupsiya ilə əlaqədar hüquqpozma törədən əməkdaşları müəyyən edərək müvafiq tədbirlər görməkdir.

Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramında (2004-2006-cı illər) korrupsiya hüquqpozmaları ilə əlaqədar cinayət təqibinin Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə Baş idarəsi tərəfindən həyata keçirilməsi qərara alınmışdır.

Azərbaycan Respublikasının qanunvericiliyi vəzifəli şəxsə xidməti vəzifələrinin icrası ilə əlaqədar bir il ərzində hər hansı fiziki və ya hüquqi şəxsdən ümumi məbləği əlli beş manatdan yuxarı olan bir və ya bir neçə hədiyyəni qəbul edə bilməz. Həmin məbləğdən yuxarı olan hədiyyələr şəxsin xidməti vəzifəsini həyata keçirdiyi dövlət orqanına və ya yerli özünüidarəetmə orqanına məxsus hesab edilir.

Vəzifəli şəxsə qanunsuz maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, vəzifəli şəxs onlardan imtina etməlidir. Maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər vəzifəli şəxsə ondan asılı olmayan səbəblərdən verilərsə, o, bu barədə birbaşa rəhbərinə məlumat verməli, maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər vəzifəli şəxsin işlədiyi dövlət orqanına akt üzrə təhvil verilməlidir.

Ölkə başçısı korrupsiyaya qarşı mübarizəni özünün prioritet vəzifələrindən biri hesab edir və bu məsələ daim onun nəzarətindədir. Belə ki, Azərbaycan Respublikası Prezidenti 2022-ci ilin 4 aprel tarixində "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022?2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında tarixi Sərəncam imzalamışdır. Həmin Sərəncamla Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022?2026-cı illər üçün Milli Fəaliyyət Planı təsdiq edilmişdir. Fəaliyyət Planının əsas və vacib müddəalarından biri odur ki, ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərən korrupsiya qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradır, iqtisadi və sosial inkişafı ləngidir, əlverişli biznes mühitinin yaranmasına mane olur.

Korrupsiyaya qarşı mübarizənin davamlı olması, korrupsiyanın qarşısının alınması ilə bağlı müasir çağırışlara uyğun effektiv mexanizmlərin tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Buna görə də həm beynəlxalq, həm də milli səviyyədə korrupsiyaya qarşı mübarizədə yeni təşəbbüslərin irəli sürülməsi zəruridir və bu sahədə icra edilən tədbirlər korrupsiyaya şərait yaradan halların və korrupsiya hüquqpozmalarının səbəblərinin, növlərinin və nəticələrinin qarşısının alınmasına yönəldilməlidir.

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunu 2004-cü il 13 yanvar tarixdə qəbul olunmasına baxmayaraq, Qanunun 5.1-ci maddəsinin tələblərinə bu günə qədər əməl olunmayıb. Belə ki, həmin maddəyə görə vəzifəli şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada mənbəyini, növünü və məbləğini göstərməklə hər il öz gəlirləri barədə məlumatları təqdim etməlidirlər: Artıq Milli Fəaliyyət Planı maddənin bu tələbini vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların elektron formada təqdim edilməsi işinin təşkili, qanunsuz varlanmaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi ilə bağlı təkliflər verilməsi redaksiyasında nəzərdə tutmuş və onun icrası Nazirlər Kabinetinə tapşırılmışdır. Digər icraçılar isə Baş Prokurorluq və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyadır. Növbəti tədbirlərdən biri isə vəzifəli şəxslər tərəfindən təqdim edilən maliyyə xarakterli məlumatlar haqqında bəyannamədəki məlumatların müvafiq məlumat bazalarındakı məlumatlarla uyğunluğunun yoxlanılmasına imkan verən elektron informasiya mübadiləsinin formalaşdırılması ilə bağlı təkliflərin təqdim edilməsidir.

Sənəddə korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin həvəsləndirilməsinə və müdafiəsinə dair qanunvericiliyin təkmilləşdirilməsi nəzərdə tutulur. "Dövlət qulluqçularının etik davranış qaydaları" haqqında Qanun layihəsi müzakirə edilərkən bu müddəanın Qanun layihəsinə əlavə edilməsi təklif olunmuşdur. Ümumi razılığa gəlinmişdir ki, bu müddəa Qanunda öz əksini taparsa, səhərisi gün bir dövlət qulluqçusu digərindən acığını çıxmaq üçün və ya sadəcə olaraq öz həmkarını ləkələmək üçün onun korrupsiya əməlləri ilə məşğul olması barədə məlumat verər. Nəticə olaraq, intizam icraatına başlanıla bilər, bu da vaxt itkisinə, dövlət qulluqçusunun işgüzar nüfuzuna xələl gətirər. Əslində, bunun əleyhinə deyiləm, sadəcə olaraq Azərbaycan reallığı var, belə normanın gələcəkdə işləməsinə böyük şübhəm var.

Göründüyü kimi ölkə başçısı korrupsiya ilə mübarizədə öz siyasi iradəsini ortaya qoyub, sadəcə olaraq bir vətəndaş kimi biz fəaliyyətimizlə ona dəstək olmalı, qarşıda nəzərdə tutulan işlərdə ona yardımçı olmalıyıq. Hamımız şahidiyik ki, 2003-cü ildən üzü bu yana ölkə başçısı korrupsiya ilə bağlı silsilə qərarlar qəbul etmişdir və Azərbaycan xalqına güvənərək ardıcıl olaraq bu mübarizənin davamlı olmasında səylərini əsirgəmir.

***Günay ƏSGƏROVA***
***Azərbaycan Respublikası Hərbi Prokurorluğunun dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru, ədliyyə polkovnik-leytenantı***